Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

İLHAM RƏHİMLİ

# AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI

ÜÇ CİLDDƏ

III
CİLD

Azərbaycan Milli
Kitabxanası

BAKI – 2017

## ŞƏMSİ BƏDƏLBƏYLİ

*(23.2.1911, Şuşa – 23.5.1987, Bakı).*
*Rejissor və teatr xadimi.*

Azərbaycanın tanınmış rejissoru, teatr

rəhbəri Şəmsi Bədəl bəy oğlu Bədəlbəyli ziyalı ailəsində doğulub. Atası Bədəl bəy Bədəlbəyli, əmisi Əhməd Ağdamski (Bədəlbəyli) milli dram və musiqi teatrımızın dirçəlişində böyük işlər görmüşlər.



1923 – 1927-ci illərdə Bakı Pedaqoji Texnikumunda təhsil alıb. 1927 – 1930-cu illərdə Üzeyir bəy Hacıbəylinin rəhbərlik etdiyi kompozisiya nəzəriyyəsi sinfində oxuyub. Tələbə ola-ola Milli Dram Teatrının kiçik orkestrində tar çalıb. 1930 – 1932-ci illərdə «Gənc işçi» qəzetində müxbir işləyib. 1933 – 1934-cü illərdə Moskvada rejissor sənəti üzrə təhsil və təcrübə kursu keçib. 1934 – 1941-ci illərdə Akademik Milli Dram Teatrının rejissor heyətinə işə götürülüb. 1941-ci ilin axırlarında «Vətən uğrunda» qəzetinin əməkdaşı kimi İranın Təbriz şəhərinə ezam edilib. Təbrizdə teatr həvəskarları ilə Üzeyir bəy Hacıbəylinin «Arşın mal alan», Zülfüqar bəy Hacıbəylinin «Əlli yaşında cavan», «Evliykən subay» operettalarını tamaşaya hazırlayıb.

1942-ci ildə Vətənə qayıdıb. 1943 – 1949, 1956 – 1961 və 1965 – 1974-cü illərdə Azərbaycan Dövlət Musiqili Komediya Teatrına baş rejissor və bədii rəhbər təyin edilib. 1974 – 1976-cı illərdə Azərbaycan Dövlət Filarmoniyasında direktor işləyib. 1976 – 1981-ci illərdə Azərbaycan Teatr Cəmiyyətinin (indiki Azərbaycan Teatr Xadimləri İttifaqı) sədri seçilib. 17 iyun 1943-cü ildə Azərbaycan Respublikasının Əməkdar artisti və 29 iyul 1964-cü ildə Xalq artisti fəxri adları ilə təltif olunub.

*Akademik teatrda quruluş verdiyi əsərlər:* «İki qardaş» («Mixail Lermontov), «Müsyö Jordan və dərviş Məstəlişah» (Mirzə Fətəli Axundzadə. Rejissor Məcid Zeynalovla birlikdə), «Xoşbəxtlər» (Sabit Rəhman. Rejissor Ədil İsgəndərovla birlikdə)

*Musiqili Komediya Teatrında hazırladığı əsas tamaşalar:* «Məşədi İbad», «Arşın mal alan» (Üzeyir bəy Hacıbəyli), «Əlli yaşında cavan», Zülfüqar bəy Hacıbəyli), «Ürəkçalanlar» (Məmməd Səid Ordubadi və Fikrət Əmirov), «Ulduz» (Sabit Rəhman və Süleyman Ələsgərov), «Müsyo Jordan və dərviş Məstəli şah» (Mirzə Fətəli Axundzadə və Şəmsəddin Fətullayev), «Bayadera» (İmre Kalman), «Durna» (Süleyman Rüstəm və Səid Rüstəmov), «Toy kimindir?» (Məhərrəm Əlizadə və Ağası Məşədibəyov), «Gözün aydın» (Məhərrəm Əlizadə və Fikrət Əmirov), «Rəisin arvadı» (Məhərrəm Əlizadə və Səid Rüstəmov), «Ləpələr» (Əliağa Kürçaylı və Arif Məlikov), «Sevindik qız axtarır» (Şıxəli Qurbanov və Süleyman Ələsgərov), «Nənəmin şahlıq quşu» (Əliağa Kürçaylı və Vasif Adıgözəlov), «Həmişəxanım» (Salam Qədirzadə və Süleyman Ələsgərov), «Keto və Kote» (Vladimir Dolidze), «Hicran» (Sabit Rəhman və Emin Sabitoğlu. Rejissor Vasif Ağayevlə birgə hazırlayıb).

*Opera və Balet Teatrında quruluş verdiyi tamaşalar:* «Əsli və Kərəm», «Koroğlu» (Üzeyir bəy Hacıbəyli), «Daisi» (Zaxar Paliaşvili), «Bahadır və Sona» (Süleyman Ələsgərov), «İnsanın taleyi» (İvan Dzerjinski), «Ölülər» (Vasif Adıgözəlov), «Knyaz İqor» (Aleksandr Borodin), «Sevilya bərbəri» (Coakkino Rossini), «Söyüdlər ağlamaz» (Əfrasiyab Bədəlbəyli).

1957-ci ildə Türkmənistan Dövlət Opera və Balet Teatrında Üzeyir bəy Hacıbəylinin «Koroğlu» operasına quruluş verib.

Şəmsi Bədəlbəylinin tamaşaları əlvan cazibədarlığı, koloritli forma həlli, həssas musiqi duyumu, bütöv aktyorluq ansamblı ilə səciyyəvi idi. Azərbaycan Dövlət Musiqili Komediya Teatrının formalaşmasında, aktyor truppasının təkmilləşməsində xidmətləri böyükdür.

«Azərbaycanfilm» kinostudiyasında istehsal olunmuş «O qızı tapın» (Zeynalov), «Axırıncı aşırım» (Şabanzadə), «Xatirələr sahili» (Əli Nəcəfov), «Ömrün səhifələri» (Şəmsi kişi) bədii filmlərinə çəkilib.

Məzarı Bakıda Fəxri xiyabandadır. Azərbaycanın paytaxtında adına küçə var.



***«Hicran», Sabit Rəhman və Emin Sabitoğlu.***
***Quruluşçu rejissor Şəmsi Bədəlbəyli.***
*Tamaşadan səhnə*



***«İki qardaş», Mixail Lermontov.***
***Quruluşçu rejissor Şəmsi Bədəlbəyli.***
*Tamaşadan səhnə*